# Musiqi və elm sahəsində Azərbaycanı dünyada tanıdan Aleksandriya Sultan-zadə fon Brusseldorfun qeyri-adi tədqiqatı

## O, dünyada səs elmləri sahəsində ilk elmi araşdırma aparır

**Əfqan Qafarlı**

**(əvvəli ötən sayımızda)**

***"Bütün bunlar mənim mənəvi borcumdur", - Aleksandriya Sultan-zadə fon Brüsseldorf vurğulayıb.***

***O, həm də ABŞ-da Azərbaycanla bağlı olan bir sıra tədbirlərin təşəşəbbüskarı və təşkilatçısı olub.***

***Məsələn, 2008-ci ildə görkəmli siyasi xadim Heydər Əliyevin anadan olmasının 85 illiyi münasibətilə və Azərbaycan Demokratik Respublikasının qurulmasının 90 illiyinə həsr olunmuş Nyu-Yorkdakı ən mötəbər və tarixi ünvanlardan birində - Aleksandr Hamiltonun ev-muzeyində keçirilən təntənəli tədbir və konsertin təşkilatçılarından biri, koordinatoru və prodüseri, eyni zamanda fəal iştirakçısı olmuş Aleksandriya Sultan fon Brüsseldorf həm də Azərbaycan və Amerikanın dövlət himnlərini oxumuşdur.***

Yaxud, 2008-ci ildə Niaqara Kamera Musiqisi Festivalında Heydər Əliyev Fondunun sponsorluğu və "İpək yolu üstündə dayanacaq" orkestrinin müşayiəti ilə təşkil olunmuş "Azərbaycanın qədim ənənələri" konsert proqramının solisti kimi məhz o çıxış edib.

Bundan başqa, o, 2009-cu ildə Nyu-York şəhərində Kolumbiya Universitetinin nüfuzlu Şapiro Mərkəzində keçirilmiş Azərbaycan Demokratik Respublikasına həsr olunmuş "Pax Turcica – 2009" adlı konfransın müsiflər heyətinə dəvət almış və eyni zamanda həmin konfransda çıxış edərək bəstəkar Üzeyir Hacıbəylinin opera fəaliyyətindən, Azərbaycan qadınlarının musiqidəki yerindən bəhs etmişdir.

Aleksandriya Sultan-zadə fon Brüsseldorf xeyli vaxtdır Bakıdadır. Onun Azərbaycana qayıdışının bir neçə səbəbi var. Bu haqda müsahibimizin özü maraqlı məlumatlar verib:

"Bakıya gəlişimin birinci məqsədi elmi fəaliyyətimlə bağlıdır. Amerikada magistr pilləsində təhsil alarkən dünyada ilk dəfə araşdırmağa başladığım xanəndə və aşıqların səs imkanları və boğaz quruluşları ilə bağlı novator işimi daha dərindən tədqiq etmək üçün 2017-ci ildə Azərbaycan Milli Konservatoriyasının doktorantura pilləsinə qəbul olundum.

***Konservatoriyada 'Muğam ifaçılarının (xanəndələrin) səs aparatının akustik və fizioloji xüsusiyyətlərinin tədqiqi" adlı dissertasiya üzərində işləyirəm. Bu dissertasiya bir ilkdir və səs elmləri sahəsində dünyada birinci araşdırma sayılır".***

***Aleksandriya xanım bu elmi iş çərçivəsində Almaniya və Azərbaycan otolarinqoloq həkimlərinin konsultasiyası ilə muğam ifası zamanı fizioloji cəhətdən xanəndələrin səs tellərinin endoskopik və fibrostroboskopik müayinəsini aparır, səsin akustik parametrlərini ölçən kompüter tətbiqlərindən istifadə edərək orijinal araşdırmalar həyata keçirir.***

Aleksandriya Sultan-zadə fon Brüsseldorf tədqiqat layihəsinin təşəbbüskarı və nümayəndə heyətinin rəhbəri olaraq 2019-cu ildə öz elmi işi çərçivəsində, Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova, Xalq artisti Mənsum İbrahimov və onun tələbəsi, muğam ifaçıları müsabiqələrinin laureatı Sədəf Budaqovadan ibarət nümayəndə heyəti ilə Almaniyanın Frayburq Universitetinin Radiologiya və tibbi fiziki klinika kafedrasında xanəndə səslərinin tədqiqi ilə əlaqədar elmi səfərdə olub.

Bu səfər zamanı ilk dəfə olaraq Mənsum İbrahimov və Sədəf Budaqovanın səs aparatları "Bayatı-Şiraz" və "Mahur-hindi" muğamlarını ifa edərkən real zaman rejimində maqnit rezonans tomoqrafiyasından (MRT) keçirilib. MRT tədqiqatı Aleksandriya Sultan-zadə fon Brüsseldorfun məsləhətçiliyi ilə dünya şöhrətli alim, Frayburq Universitetinin professoru, doktor Yurgen Henniq tərəfindən qeydə alınıb.

Özünün də qeyd etdiyi kimi, səs elmləri sahəsində dünyada ilk araşdırma sayılan bu dissertasiya işi çərçivəsində bir sıra məşhur azərbaycanlı xanəndələrin boğaz aparatının akustik və fizioloji xüsusiyyətləri tədqiq olunur. Tədqiqata cəlb edilən sənətkarlara misal olaraq, Xalq artistləri Alim Qasımov, Aygün Bayramova, Səkinə İsmayılova, Mənsum İbrahimov, Arif Babayev, Canəli Əkbərov və digər xanəndələrin adını çəkmək olar.

Maraqlıdır ki, Aleksandriya xanım sözügedən elmi iş çərçivəsində həm də keçmişdə yaşamış Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, Seyid Suşinski kimi məşhur Qarabağ xanəndələrinin, eləcə də görkəmli sənətkarlar Şövkət Ələkbərova, Rübabə Muradova, Əbülfət Əliyevin səslərini də kompakt disklər üzərindən araşdırır.

***Müsahibimiz deyir ki, elmi işində muğam və aşıq ifalarında səsin empirik, fizioloji, texniki-akustik xüsusiyyətlərini və səsin idarə olunmasında səs tellərinin və səs aparatının, oxuma texnikasının funksional rolunu araşdıraraq, onun qorunması yollarını göstərməyə çalışır ki, bu ifalarda tonal ideallların saxlanmasına səbəb olsun.***

**(ardı gələn sayımızda)**











***Bu səfər zamanı ilk dəfə olaraq Mənsum İbrahimov və Sədəf Budaqovanın səs aparatları "Bayatı-Şiraz" və "Mahur-hindi" muğamlarını ifa edərkən real zaman rejimində maqnit rezonans tomoqrafiyasından (MRT) keçirilib. MRT tədqiqatı Aleksandriya Sultan-zadə fon Brüsseldorfun məsləhətçiliyi ilə dünya şöhrətli alim, Frayburq Universitetinin professoru, doktor Yurgen Henniq tərəfindən qeydə alınıb...***

